## AZƏRBAYCANDA 2012 - Cİ İLİN ƏN YAXŞI İDMANÇILARI

*Ötən il dekabrın 24-də "Buta" sarayında keçirilən tədbirdə ilin ən yaxşı idmançısı seçilən 20 idmançı mükafatlandırılıb*

Bunlar London Yay Olimpiya oyunlarının mükafatçıları – çempionlar Toğrul Əsgərovla Şərif Şərifov, gümüş medalçılar Rövşən Bayramov, Mariya Stadnik, bürünc mükafatçılar Valentin Xristov, Emil Əhmədov, Xetaq Qazyumov, Teymur Məmmədov, Məhəmmədrəsul Məcidov, Yulkiya Radkeviç, Paralimpiadanın mükafatçıları – Ramin İbrahimov, Afaq Sultanova, Natalya Pronina, İlham Zəkiyev, Oleq Panyutin, habelə Teymur Rəcəbov, Oleq Panyutin, Ayxan Mamayev, Roman Aslanov və Rüfət Qocayevdir.



**Olimpiya çempionu Şərif Şərifov**



**Olimpiya çempionu Toğrul Əsgərov**

## 2012 - Cİ İLDƏ AZƏRBAYCANLI GİMNASTLAR 123 MEDAL QAZANIBLAR

*Onlardan 41-i qızıl, 45-i gümüş, 37-si isə bürünc medaldır*

Qazanılan ən mühüm titul Nijni Novqorodda keçirilən Avropa çempionatında çoxnövçülük üzrə yarışda Aliyə Qarayevanın bürünc medalı olub. Toplam olaraq milli komandanın lideri öz hesabına 17 (üç qızıl, altı gümüş və səkkiz bürünc) medal yazıb.

Ötən il ərzində 14 yaşlı bakılı idmançı Nilufər Niftalıyevanın da qazandığı mükafatların sayı eynidir. Nilufər də "Avro 2012"-də "bürünc" qazanıb və Yakutskda keçirilən "Asiyanın uşaqları" beynəlxalq idman oyunlarındakı qələbələri ilə fəxr edə bilər. Medalların nisbəti belədir: 5-5-7.

Gimnastikanın digər növlərinə gəldikdə, Afaq Məhərrəmli-Pərizad Quliyeva, Aynur Hüseynova-Nərmin Ramazanova, Lalə Hüseynova-Xoşqədəm Quliyeva qadın akrobat çütlükləri, eləcə də akrobatik cığırda hoppanma üzrə mütəxəssis Mixail Malkin müxtəlif yarışların qalibləri və mükafatçıları olublar. Şakir Şıxəliyev isə Azərbaycanın müstəqillik əldə etməsindən sonra ilk dəfə olaraq Londonda Olimpiya Oyunlarının idman gimnastları turnirində iştirak edib.



## AVROPANIN ƏN YAXŞI İDMANÇISI

*Ənənəyə görə, hər il Polşa mətbuatı Avropanın ən yaxşı idmançısını seçir*



Səsvermənin nəticəsində 137 səs toplayan üçqat dünya çempionu, "Formula-1" yarışmasının pilotu almaniyalı Sebastyan Fettel Avropanın ən yaxşı idmançısı seçilib. Avropanın 2-ci yaxşı idmançısı 130 səs toplayan velosipedçi Bredli Uiqqins olub, 3-cü yerə isə 126 səslə kross qaçışçısı Muhammad Farah layiq görülüb. Qeyd edək ki, Fettel ilk dəfə Avropanın ən yaxşı idmançısı seçilir

İlk onluğu təqdim edirik: Sebastyan Fettel - 137 səs; Bredli Uiqqins – 130; Muhammad Farah – 126; Novak Cokoviç – 108; Andreas İnyesta – 103; Endi Marrey – 67; Kriştiano Ronaldo – 66; Ranomi Kromovidyo – 55; Rocer Federer – 50;. Sebastyan Leb – 47.

## CÜNEYT ÇAKIR – İLİN HAKİMİ

*Məşhur "footballrefereing.blogspot.com" saytı 2012-ci ilin ən yaxşı hakiminin adını açıqlayıb*



Apasport.az-ın məlumatına görə, bu ada topladığı 82 xalla Cüneyt Çakır layiq görülüb.

Türkiyəli referi Çempionlar Liqasının yarımfinalında "Barselona" - "Çelsi" matçını, Avro-2012 və Yaponiyada keçirilən klublararası dünya çempionatının finalını idarə etdiyi üçün səsvermə nəticəsində bütün rəqiblərini qabaqlayıb.

İkinci yerin sahibi 82 xalla kolumbiyalı Vilmar Roldan olub. 61 xal toplayan portuqaliyalı referi Pedro Proyença isə üçüncü yerə çıxıb.

2012-ci ilin ən yaxşı 10 hakimi bunlardır: Cüneyt Çakır (Türkiyə 82 xal);. Vilmar Roldan (Kolumbiya 61 xal); Pedro Proyença (Portuqaliya 58 xal); . Damir Skomina (Sloveniya 55 xal); . Yuiçi Nişimura (Yaponiya 54 xal); Feliks Brus (Almaniya 44 xal); Bakari Qassama (Qambiya 30 xal); Roberto Qarsia (Meksika 21 xal); Dario Ubriaso (Uruqvay 20 xal); Pavel Kraloveç (Çexiya 19 xal).

## "QIZIL TOP"UN SAHİBİ

*Lionel Messi dördüncü dəfə bu mükafatı qazandı*



Messi argentinalı ulduz Andres İniyesta ilə Kriştiano Ronaldonu qabaqlayaraq, bu ada layiq görülüb. O, "Qızıl top-2012» mükafatına sahib olduqdan sonra bildirib: «Doğrusu, bu mükafatı ardıcıl olaraq dördüncü dəfə almaq heyrətamizdir. Eyni zamanda Andres İnyestanı qeyd etmək istəyirəm – onunla bir komandada oynamaq, məşq etmək mənimçün böyük şərəfdir. Bu mükafatın sevincini «Barselona»dakı həmkarlarımla, xüsusilə bü gun Andreslə, Argentina millisindəki dostlarımla, mənimlə işləyən hər kəslə - baş məşqçilərlə, heyətlə və əlbəttə ki, dostlarımla, ailəmlə, xanımım və oğlumla bölüşmək istəyirəm».

Qeyd edək ki, 25 yaşlı forvard «Qızıl top»a dörd dəfə sahib olan ilk futbolçudur.

Bu mükafatı 3 dəfə Mişel Platini, Yohan Kroyff və Marko van Basten alıblar.